# COP29-un baş icraçı direktoru: Bu ilin noyabr ayında Bakı bütün dünyanın diqqət mərkəzində olacaq

“COP29 yaşıl enerjiyə keçidin sürətləndirilməsi üçün geniş müzakirə və fəaliyyət platforması olacaq”.

AZƏRTAC xəbər verir ki, bunu COP29-un baş qərargahında keçirilən ilk mətbuat konfransında COP29-un baş icraçı direktoru Elnur Soltanov deyib.

O qeyd edib ki, COP29-da Azərbaycanın indiyədək bu istiqamətdə götürdüyü öhdəliklərin icrası baxımından yeni imkanlar yaranacaq: “Azərbaycanın rolu sadəcə ev sahibliyi mandatı ilə məhdudlaşmayacaq və ölkəmiz konfransdakı danışıqlara da rəhbərlik edəcək. Bu mənada, bu ilin noyabr ayında Bakı bütün dünyanın diqqət mərkəzindəolacaq”.

**AZƏRTAC**
**2024, 15 aprel**